*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 31 oktyabr 2015-ci il | № 83 (1999) | Qiyməti 25 qəpik

## Rəsmi xronika

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Yaponiyanın iqtisadi dirçəliş, sosial müdafiə və vergilərin ümumi islahatı üzrə naziri, iqtisadi və maliyyə siyasəti üzrə dövlət naziri Akira Amarinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Görüşdə Azərbaycan ilə Yaponiya arasında əməkdaşlığın enerji, neft-kimya, təhsil, səhiyyə, kənd təsərrüfatı və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.***

* * *

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Monteneqronun Baş naziri Milo Cukanoviçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***

***Görüşdə ölkələrimiz arasında enerji, "Cənub Qaz Dəhlizi" layihəsi çərçivəsində əməkdaşlıq, nəqliyyat, infrastruktur, turizm və digər sahələrdə əlaqələrin inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.***

* * *

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Hindistan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sanjay Rananın etimadnaməsini qəbul edib.***

***Prezident İlham Əliyev Azərbaycanın Hindistan ilə tərəfdaşlıq əlaqələrinin inkişaf etdirilməsində maraqlı olduğunu dedi. Dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın iqtisadi, enerji, ticarət, təhsil, mədəniyyət və digər sahələrdə böyük potensiala malik olduğunu qeyd etdi. Prezident İlham Əliyev biznes sahəsində əlaqələrin genişləndirilməsi, qarşılıqlı sərmayələrin stimullaşdırılması, birgə müəssisələrin yaradılması və ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılması üçün də böyük imkanların olduğunu vurğuladı.***

* * *

***✓Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Misir Ərəb Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Suzanne Mohamed Gamilin etimadnaməsini qəbul edib.***

***Prezident İlham Əliyev ölkələrimiz arasında müxtəlif səviyyəli qarşılıqlı səfərlərin son vaxtlar daha fəal şəkildə həyata keçirilməsinin önəmini qeyd edərək, bu təmasların əməkdaşlığımızın çox müsbət göstəricisi olduğunu dedi. Ölkələrimiz arasında ikitərəfli əlaqələrə toxunan Prezident İlham Əliyev bu əlaqələri irəli aparmaq üçün prioritetlərin dəqiq müəyyənləşdirilməsinin vacibliyini qeyd etdi, iki ölkə arasında qarşılıqlı ticarətin səviyyəsinin artırılacağına ümidvar olduğunu bildirdi.***

**AZƏRTAC-ın materialları əsasında**

# Prezident İlham Əliyev ATƏT-in Minsk Qrupunun həmsədrlərini və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsini qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də ATƏT-in Minsk Qrupunun həmsədrləri Pyer Andryönu (Fransa), İqor Popovu (Rusiya), Ceyms Uorliki (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anjey Kasprşiki qəbul edib.***

Görüşdə Prezident İlham Əliyev bildirdi ki, Ermənistan rəhbərliyi təxribatlardan əl çəkmir. Keçən ilin oktyabrında prezidentlərin Paris danışıqlarından iki həftə keçməmiş Ermənistan işğal olunmuş Azərbaycan ərazilərində genişmiqyaslı hərbi təlimlərə başlamışdır. Ermənistan silahlı qüvvələrinə məxsus döyüş helikopterləri Azərbaycanın mövqelərinə hücumlar etmişdir. Azərbaycan tərəfi bir neçə gün buna cavab verməmişdir. Nəhayət, davamlı olaraq mövqelərimiz üzərində döyüş manevrləri həyata keçirən Ermənistan silahlı qüvvələrinin hərbi helikopterləri açıq şəkildə mövqelərimizə atəş açmağa cəhd etdikləri zaman məhv edilmişdir.

Dövlətimizin başçısı daha sonra qeyd etdi ki, bu ilin sentyabrında Ermənistan silahlı qüvvələrinin diversiya qrupunun ərazimizdə təxribat törətmək cəhdlərinin də qarşısı alınmış və işğalçılar xeyli sayda itki vermişlər. Prezident İlham Əliyev bildirdi ki, bütün bu təxribatlara görə Ermənistan prezidenti Serj Sarkisyan məsuliyyət daşıyır.

Dövlətimizin başçısı vurğuladı ki, Ermənistan hazırda regionda böyük təhlükə mənbəyinə çevrilib. Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərindən dinc əhaliyə mütəmadi olaraq atəş açır, hətta toy məclislərində iştirak edən insanlar belə atəşə tutulur və nəticədə mülki əhalimiz arasında itkilər olur. Azərbaycan tərəfi bu cür təxribatlara cavab verdikdə isə bizi günahlandırırlar. Prezident İlham Əliyev təəssüf hissi ilə vurğuladı ki, beynəlxalq ictimaiyyət və xüsusilə də vasitəçilər Ermənistan tərəfinin bu azğınlaşmış hərəkətlərinə adekvat reaksiya vermirlər.

Azərbaycan Prezidenti bildirdi ki, bütün bunlar azmış kimi, bu yaxınlarda diktator Sarkisyan rejimi yeni bir siyasi təxribata əl atmış, Dağlıq Qarabağın Ermənistanın tərkib hissəsi olduğunu bildirmişdir. Bu, dözülməz, hətta Ermənistanın rəsmi mövqeyinə belə zidd olan bəyanata da, əfsuslar olsun ki, vasitəçilər tərəfindən heç bir cavab verilməmişdir. Dövlətimizin başçısı vurğuladı ki, bütün bunlar Azərbaycan tərəfində böyük təəssüf hissi doğurur və vasitəçilərin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı missiyasına kölgə salır.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

## Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi: "Azərbaycan ərazilərinin işğaldan azad olunması üçün hər şey ediləcək"



***Bunu Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Hulusi Akar APA-nın Türkiyə müxbirinə bildirib.***

Qərargah rəisi bildirib ki, Türkiyə ilə Azərbaycan bir millət, iki dövlətdir.

"Torpaqlarımızın 20 faizi hələ də erməni işğalı altındadır. Torpaqların işğaldan azad edilməsi üçün Türkiyə ilə Azərbaycan müştərək addımlar atacaqmı" sualını Hulusi Akar belə cavablandırıb: "Hər şey çox gözəl olacaq. Buna əmin olun. Əlimizdən nə gəlirsə, mütləq edəcəyik".

## Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı torpaqlarımızın işğaldan azad olunmasına yönəlib

***Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Hulusi Akarın "Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunması üçün lazım olan hər şey ediləcək" fikrinə Azərbaycanın Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən münasibət bildirərək qeyd ediblər ki, bu dəstək iki ölkə arasında mövcud olan ortaq tarixi, mənəvi dəyərlərə söykənən möhkəm dostluq, qardaşlıq əlaqələrindən və ənənəvi həmrəylik ruhundan irəli gəlir.***

"Xalqımızın ümummilli lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı Azərbaycan-Türkiyə münasibətlərini xarakterizə edən milli konsepsiyanı əks etdirməklə yanaşı, bu gün də ölkələrimiz arasında ən yüksək səviyyədə siyasi, iqtisadi, humanitar, eləcə də hərbi və digər sahələrdə mövcud olan yaxınlığı bir daha nümayiş etdirir.

Dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın birbaşa dəstəyi ilə ölkələrimizin hərbi qurumları arasında hər il imzalanan ikitərəfli fəaliyyət planına əsasən, Quru Qoşunları, Hərbi Hava Qüvvələri və digər qoşun növlərinin birgə keçirdiyi döyüş atışlı hərbi təlimlər, yüksək səviyyəli hərbi nümayəndələrin qarşılıqlı səfərləri, o cümlədən hərbi təhsil və hərbi-texniki sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi mərhələli surətdə həyata keçirilir. Bu qəbildən olan Azərbaycan-Türkiyə yüksək səviyyəli hərbi dialoq prosesinin aparılması isə hərbi strateji imkanların uzlaşdırılması məqsədilə icra edilir.

## Bakıda Türkiyənin milli bayramı qeyd edilib

***Türkiyənin Azərbaycandakı səfirliyi Cümhuriyyətin elan edilməsinin 92-ci ildönümü münasibəti ilə oktyabrın 29-da rəsmi qəbul təşkil edib.***

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət himnləri səsləndirildikdən sonra səfir İsmail Alper Coşkun ulu öndər Mustafa Kamal Atatürkün rəhbərliyi ilə Türkiyənin istiqlal mübarizəsindən və keçdiyi inkişaf yolundan danışıb.

Səfir qeyd edib ki, Türkiyə öz dinamik inkişaf yolunda siyasi, hərbi, iqtisadi, demokratiya və insan haqları sahələrində böyük addımlar ataraq regionda və dünyada öz mövqeyini möhkəmləndirib.

Azərbaycan ilə Türkiyə arasında əlaqələrin inkişafında dövlət və hökumət başçılarının rolunu vurğulayan səfir deyib ki, qarşılıqlı səfərlər, aparılan danışıqlar və imzalanmış çoxsaylı sənədlər dostluq və qardaşlıq münasibətlərini ən yüksək səviyyədə davam etdirməyə imkan yaradır.

Bildirilib ki, bu gün Türkiyə və Azərbaycan sıx birliyə nail olublar. Ortaq tarixə, keçmişə malik qardaş ölkələrimiz iqtisadi cəhətdən inkişaf etdikcə gələcəyə daha inamla addımlayırlar.

Səfir Türkiyənin milli bayramının qardaş Azərbaycanda qeyd edilməsinin böyük şərəf olduğunu bildirib.

Sonra diplomat Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın müstəqillik günü ilə bağlı təbrik mesajını oxuyub.

Baş nazirin müavini Abid Şərifov Azərbaycan hökuməti adından Türkiyə dövlətini və xalqını əlamətdar bayram münasibətilə təbrik edib. Abid Şərifov bildirib ki, Türkiyə hərtərəfli inkişaf edərək çox böyük və şərəfli yol keçib. Ölkələrimiz arasında münasibətlər böyük dostluq və qardaşlığın nümunəsidir. Tarix boyu Türkiyə hər zaman Azərbaycanın yanında olub, müstəqillik illərində də ölkəmizin dövlət quruculuğu istiqamətində atdığı bütün addımlara böyük dəstək verib. Türkiyə Dağlıq Qarabağ münaqişəsinin həllində həmişə Azərbaycanın yanında olub və ölkəmizin haqq səsinin dünyaya çatdırılmasında bizi dəstəkləyib.

Azərbaycanla Türkiyə arasında bütün sahələrdə əməkdaşlıq inkişaf edir və bundan sonra da inkişaf edəcək.

Baş nazirin müavini deyib ki, iqtisadi münasibətlərin əsasını qarşılıqlı sərmayə qoyuluşları, enerji və nəqliyyat layihələri təşkil edir. Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlərin 30 faizdən çoxu Türkiyənin payına düşür. Ölkələrimiz iri nəqliyyat layihələri icra edir. Bunlardan ən böyüyü Bakı-Tbilisi-Qars dəmir yolu layihəsidir. Bu layihənin işə düşməsi Azərbaycanla Türkiyəni bir-birinə daha da yaxınlaşdıracaq.

Tədbirdə Azərbaycanın dövlət və hökumət nümayəndələri, xarici ölkələrin səfirləri, ictimaiyyətin nümayəndələri və digər qonaqlar iştirak ediblər.

AZƏRBAYCAN ORDUSU

# Hərbi qulluqçuların sosial qayğıları daim diqqət mərkəzindədir

## Növbəti hərbi hissədə yeni yaşayış binalarının açılış mərasimi keçirilib







***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin hərbi qulluqçuların mənzil və sosial-məişət şəraitlərinin yaxşılaşdırılması ilə əlaqədar müvafiq göstərişinə əsasən, növbəti hərbi şəhərciyin ərazisində yeni tikilən 2 yaşayış binasının açılış mərasimi olub.***

Yeni tikilən beşmərtəbəli hər biri 3 otaqlı ümumilikdə 100 mənzilli binalar kommunikasiya xətləri ilə təchiz olunaraq mərkəzləşdirilmiş istilik sisteminə qoşulub. Müasir standartlara cavab verən tam təmirli mənzillər mebel və lazımi avadanlıqla təchiz olunub. Ərazidə yarımstansiya, 200 kubmetr tutumlu su anbarı tikilib, binaların ətrafı asfaltlanıb və kanalizasiya sistemi quraşdırılıb. Hasara alınmış yaşayış kompleksinin həyətində yaşıllaşdırma və abadlıq işləri görülüb, sakinlərin səmərəli istirahəti üçün lazımi şərait yaradılıb.

Xidməti mənzillərin açarlarının təqdimetmə mərasimində hərbi qulluqçular və onların ailə üzvləri ilə görüşən Müdafiə naziri general-polkovnik Zakir Həsənov nazirliyin rəhbərliyi adından tədbir iştirakçılarını təbrik edərək deyib:

- Möhtərəm cənab Prezidentin tapşırığını yerinə yetirərək bu hərbi hissədə yeni binaların tikilməsi və onların sizin istifadənizə verilməsi ailələrinizin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərin bir hissəsidir.

Ali Baş Komandanın Silahlı Qüvvələrin fəaliyyətinə verdiyi yüksək qiymətdən məlumatlısınız. Əmin olun ki, bu uğurun əksər hissəsi məhz sizin payınıza düşür. Qısa müddət ərzində döyüş tapşırığını yerinə yetirən hərbi qulluqçular xalqımız naminə, Vətən uğrunda döyüşərək düşmənə sübut etdilər ki, Azərbaycan əsgəri və silahı qarşı tərəfdən qat-qat güclüdür, üstündür. Düşmənlərimiz artıq vahimə içindədir, qorxurlar. Biz bu işi davam etdirəcəyik. Biz düşməni məhv edərək onu mütləq torpaqlarımızdan qovacaq və yaxın müddətdə ərazilərimizi işğaldan azad edəcəyik.

İlin sonunadək sizin hərbi hissənin istifadəsinə yeni iki bina da veriləcək. Gələn ilin əvvəlində isə daha iki bina hazır olacaqdır. Çalışacağıq ki, qısa bir müddətdə sizin bütün sosial problemləriniz həll olunsun. Bu, möhtərəm cənab Prezidentin tapşırığıdır və biz bunu icra edəcəyik. Bundan əlavə, yeni hərbi şəhərcik də hazır olmaq üzrədir və onun da açılışını ilin sonunadək həyata keçirməyi planlaşdırırıq.

Bir daha sizin hamınızı ürəkdən təbrik edir, yeni mənzillərinizdə xoşbəxt, firavan günlər diləyir və uğurlar arzulayıram.

Mənzillərin açarları şəxsi heyətə təqdim edildikdən sonra Müdafiə Nazirliyinin rəhbərliyi, komandanlıq heyəti və hərbi qulluqçuların ailə üzvləri ərazidə ağac və gül kolları əkiblər.

Mərasim iştirakçıları yaradılan şəraitdən məmnun qaldıqlarını və göstərilən qayğıya görə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Yeni mənzillərin açarları hərbi qulluqçulara təqdim edildikdən sonra Müdafiə naziri general-polkovnik Zakir Həsənov yaradılan şəraitlə tanış olub, ailələrin qayğıları ilə maraqlanıb və çay süfrəsi ətrafında onlarla söhbət edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***30 oktyabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 109 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində, Krasnoselsk rayonunun Cil kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Göyarx, Çiləbürt, Çaylı, Yarımca, Qızıloba, Ağdam rayonunun Cəvahirli, Kəngərli, Sarıcalı, Şuraabad, Mərzili, Novruzlu, Şıxlar, Baş Qərvənd, Qaraqaşlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 110 dəfə atəş zərbəsi endirib.

# Xatirələrdə yaşayan sərkərdə




***Oktyabrın 30-da Azərbaycan Hərb Tarixi Muzeyində görkəmli hərbi xadim, tam artilleriya generalı Səməd bəy Mehmandarovun 160 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Tədbir Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sərəncamına uyğun olaraq Müdafiə, təhsil, mədəniyyət və turizim nazirlikləri ilə birlikdə keçirilən tədbirlərin davamıdır.***

Əvvəlcə ümummilli lider Heydər Əliyevin, tam artilleriya generalı S.Mehmandarovun və Vətənimizin azadlığı uğrunda həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycanın Dövlət himninin ifası ilə tədbir açıq elan oldu.

İlk çıxış üçün söz Muzeyin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadəyə verildi. O, görkəmli sərkərdənin keçdiyi döyüş yolundan bəhs etdi.

Polkovnik Abdulla Qurbani çıxış edərək dövlət rəhbərliyi tərəfindən hərb tariximizdə mühüm xidmətləri olan Cəmşid Naxçıvanskinin, Əlağa Şıxlinskinin və Səməd bəy Mehmandarovun yubileylərinin təntənəli keçirilməsi üçün sərəncamların imzalandığını və bütün bunların tarixi dəyərlərə göstərilən yüksək ehtiramın nəticəsi olduğunu qeyd etdi. O bildirdi ki, görkəmli sərkərdə, tam artilleriya generalı Səməd bəy Mehmandarovun yubiley tədbirlərinə Gəncə şəhərində start verilməsi heç də təsadüf deyil.



Xalq Cümhuriyyəti dövründə ölkəmizin paytaxtı Gəncə şəhəri olub və milli ordumuzun ilk bölmələri də məhz burda yaradılıb. O zaman ordumuzun yaradılmasında ilk hərbiyyə nazirimiz olan tam artilleriya generalı S.Mehmandarovun böyük zəhməti olub.

Sonra İstiqlal Muzeyinin elmi işçisi Gülay Ramazanovanın "Səməd bəy Mehmandarov - hərb tariximizin iftixarı" mövzusunda çıxışı maraqla dinlənildi.

Hərb Tarixi Muzeyinin əməkdaşı Şəlalə Hüseynova isə müasirlərinin generalla bağlı xatirələrindən danışdı. Bildirdi ki, Səməd bəy Mehmandarovun döyüşlərdə göstərdiyi fədakarlıqlar və əsgərlərlə xoş rəftarı haqqında onun müasirləri iftixarla söz açıblar. Mehmandarov ədalətli, namuslu, düz danışan adamları sevib, onlara kömək göstərib, niyyəti düz olmayanlara isə qarşı amansız olub. Qırmızı ordunun komandirlərindən biri olan Yakir öz qeydlərində yazır ki, Səməd bəy öz zabit qürurunu və bütövlüyünü daim qoruyub saxlayb. Vəzifə məsuliyyətini heç zaman itirməyib. Səməd bəyin tələbəsi olmuş mərhum general Akim Abbasov müəllimini belə xatırlayırdı: "Mənə xoşbəxtlik nəsib olmuşdu. Mən üç il rus-yapon və 1-ci Dünya müharibəsinin bu tanınmış qəhrəmanının rəhbərliyi altında oxumuşam. General S.Mehmandarov qeyri-adi dərəcədə əməksevər idi. Çətin peşəsini ürəkdən sevirdi, ona sadiq idi və heyranedici bir çalışqanlıqla bu hissləri bizə aşılayırdı".

ANS televiziyasının görkəmli hərb xadimi haqqında ərsəyə gətirdiyi qısametrajlı film nümayiş olundu.

Yubiley tədbiri yüksək səviyyədə təşkil olunduğu üçün Müdafiə Nazirliyi Tank Qoşunları xidmətinin rəisi polkovnik Sakit Verdiyev tankın maketini xatirə olaraq muzey rəisinə təqdim etdi.

Sonda tədbir iştirakçıları Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının ifasında hərbi vətənpərvərlik mahnılarını böyük həvəslə dinlədilər.

**Mayor Bəxtiyar ƏLİYEV, "Azərbaycan Ordusu"**

*Cəbhə xəttindən reportaj*

# "Tanklarımız döyüşə hazır vəziyyətdədir"

Uzaq yola çıxmağı sevirəm. Çünki yol boyu düşünür, həyatının müxtəlif anlarını nəzərdən keçirirsən. Ətrafa baxırsan, bu yollardan dəfələrlə keçdiyini xatırlayırsan. Hər səfərində fərqli məqsədlərlə keçmisən bu yollardan. Amma Hacıqabul rayonundan keçərkən həmişə içimi qəribə hisslər bürüyür. Bu rayonun şəhid oğlu, şəhid leytenant Allahverdi Əbülfəz oğlu Baxışlının dəfn mərasimini xatırlayıram. Düzdür, Hacıqabul camaatı torpaq uğrunda çox şəhidlər verib. Lakin Baxışlı ailəsinin taleyi tamam fərqlidir. Çünki leytenant Allahverdi Baxışlının atası Əbülfəz Baxışlı da Vətən uğrunda şəhid olub. Ağdam uğrunda gedən döyüşlərdə şəhid olmuş Əbülfəz Baxışlının adını daşıyan küçədə oğlunun vida mərasimi təşkil edilmişdi. Necə unudasan bu anları...

Acılı-şirinli xatirələrlə yolumuza davam edirik. Səfərimizin məqsədi yenə də əsgərlərimizlə görüşməkdir.

Nəhayət, hərbi hissəyə çatırıq. Bizi şəxsi heyətin mənəvi-psixoloji hazırlığına cavabdeh şəxslərdən olan zabit Şövqiyar Məmmədov qarşılayır. Təcrübəli zabit söhbətimizdə bildirir ki, hərbi hissədə yüksək döyüş hazırlığına malik kollektiv formalaşıb. Təlimlər zamanı qarşımıza qoyulan əmr və tapşırıqları dəqiq və qüsursuz yerinə yetirmək, müharibə zamanı düşməni məhv etmək başlıca amalımızdır.

Vətənpərvər zabitlərdən İntiqam Mirzəyevlə söhbətimiz də xoş keçdi. O, xidmətinin əsas hissəsini cəbhə bölgəsində keçirən qorxmaz Vətən oğullarındandır. Hər sözündən Vətənə sevgisi, düşmənə olan nifrəti açıq hiss edilir.

- Ötən illərə nəzər saldıqda ulu öndər Heydər Əliyevin ideyalarının təcəssümü olaraq digər istiqamətlərdə olduğu kimi, hərbi sahədə də ölkəmizin necə böyük inkişaf yolu keçdiyini görmək olar. Prezident, Ali Baş Komandan İlham Əliyev çıxışlarında hər zaman bildirir ki, heç kim bu gün Azərbaycana döyüş meydanında öz iradəsini diktə edə bilməz. Ali Baş Komandanın böyük qürurla səsləndirdiyi bu sözlər hər birimizdə iftixar doğurur. Doğrudan da, bu gün heç kim döyüş meydanında bizə iradəsini diktə edə bilməz, - dedi polkovnik-leytenant İntiqam Mirzəyev.

Vaxt itirmədən tankçılarımızın yanına yollanırıq. Mayor Tural Abdullayevi şəxsi heyətin yanında gördük. Zabitin açıqlamasına görə, ordu quruculuğu konkret zamanla məhdudlaşmayan, daim gərgin səy göstərilməsini tələb edən çətin və mürəkkəb prosesdir. Bu sahədə uğurları təmin edən başlıca amillərdən biri də polad nizam-intizamın yaradılması, habelə şəxsi heyətə vətənpərvərlik duyğularının aşılanmasıdır. Təcrübə göstərir ki, döyüş ruhu olmayan orduya uğur qazanmaqda ən müasir silahlar belə kömək etmir. Bu gün Azərbaycan Ordusunda şəxsi heyətin mənəvi-psixoloji durumu, döyüş ruhu yüksək səviyyədədir. Bunun əsas səbəblərindən biri də ön xətdə yerləşən hərbi hissələrdə vətənpərvərlik əzmi ilə düşmənlə üz-üzə dayanan, hücum əmrinə daim hazır olan hərbçilərimizin sosial müdafiəsinin ildən-ilə gücləndirilməsidir.



Həmsöhbətim haqlıdır, dövlətin hərtərəfli qayğısını hər addımda hiss edən mətin əsgər və zabitlərimiz üzərlərinə düşən məsuliyyəti yetərincə dəyərləndirir, komandanlığın əmr və göstərişlərini yüksək səviyyədə yerinə yetirməyə çalışırlar. Müdafiə Nazirliyinin həyata keçirdiyi kompleks tədbirlər nəticəsində bu gün ön xətdə keşik çəkən əsgər və zabitlərin sosial vəziyyəti əhəmiyyətli dərəcədə yaxşılaşıb. Hər cür qayğı və ehtiyacdan azad olan şəxsi heyətin əsas diqqəti nizam-intizama, hərbçi peşəsinin incəliklərini dərindən mənimsəməyə yönəlib. Xüsusən də düşmənlə təmas xəttində xidmət keçən hərbçilərin geyim və silah-sursatla təchizatı, normativə uyğun şəkildə qidalanması, gigiyenik-sanitar tələblərə riayət etməsi üçün hər cür şərait yaradılıb. İnşa olunmuş əsgər sığınacaqları zəruri hərbi ləvazimat və əşyalarla təmin olunub.

Zabit tabeliyində olan bacarıqlı tank heyəti haqqında da xoş sözlər dedi.

- Hərbi hissəmizdə ixtisas və döyüş hazırlığı dərsləri mütəmadi olaraq burada keçirilir. Tanklarımızın hamısı saz və döyüşə hazır vəziyyətdədir. İstənilən zaman Ali Baş Komandan İlham Əliyev əmr verərsə, döyüşməyə hazırıq. Biz həm texnikamıza, həm də peşəkar tank heyətimizə güvənirik. Burada əsas vəzifələr təcrübəli zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına tapşırılıb. Bu da döyüş zamanı qələbənin əldə olunmasına təsir edən başlıca amildir.

Zabitin söhbətindən öyrənirəm ki, tank heyətlərinin hər biri peşəkar kollektivdən ibarətdir. Gizirlər Elvin Hüseynov, Zavir İsgəndərov və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Samir Əhmədxanov təcrübəli tank heyəti üzvləridir. Onlar məşğələlər və təlimlər zamanı öz vəzifələrinin öhdəsindən layiqincə gəlirlər.

5 ildir ki, tank heyətinin üzvü olan təcrübəli gizir Elvin Hüseynov da yaradılan sosial şəraitdən, texnikanın döyüşə hazır olmasından söz açaraq bildirdi ki, hər birimiz əzəli torpaqlarımız uğrunda son damla qanımıza qədər döyüşməyə və şəhidlərimizin qisasını almağa hazırıq.

Gizir Zavir İsgəndərov isə artıq 6 ildir ki, xidmətdədir. Əslən Qusar rayonundan olan gizir tuşlayıcı vəzifəsindədir. O, heyət üzvləri arasında olan mehribanlıq və səmimiyyətdən söz açdı. Uğurlarımızın başlıca səbəbi hər bir heyət üzvünün təcrübəli olmasıdır. Həmçinin, aramızdakı dostluq və qardaşlıq münasibəti bir-birimizə dəstək olaraq uğurlu xidmət keçməyimizə yardımçı olur.

Heyətin nümunəvi hərbi qulluqçularından sayılan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Samir Əhmədxanov isə sürücü-mexanikdir. 2007-2008-ci illərdə müddətli həqiqi hərbi xidmət keçərək, Vətənə borcunu yerinə yetirib. Vətən sevgisi və hərb sənətinə olan marağı yenidən ordu sıralarına qatılmasına səbəb olub.

- Hər şey qaydasındadır. Xidmətimiz uğurlu və problemsiz gedir. Sürücüsü olduğum tankın taktiki-texniki xüsusiyyətlərini mükəmməl bilirəm. Bu gün mənə həvalə edilən vəzifənin öhdəsindən gələ bilirəm. Hər bir Vətən oğlu kimi mən də torpaqlarımızı azad etmək arzusundayam. Bir gün üzərində üçrəngli bayrağımız sancılan tankımla Qarabağa gedəcəyim günün həsrətindəyəm.

Uğurları və peşəkarlıqları ilə seçilən tank heyətinin qələbəyə inamlı olmasını görmək bu ezamiyyət səfərimdən də xoş xatirələrlə ayrılmağımıza səbəb olur. Bir gün bu torpaqlardan keçərkən tankçılarımızı xatırlayacağıma əminəm.

**Baş leytenant Ceyhun CƏFƏRLİ, "Azərbaycan Ordusu"**

# Xalq öz ordusuna inanır

## “Açıq qapı” günündən qeydlər

***Xəbər verildiyi kimi, oktyabrın 25-də Silahlı Qüvvələrin hərbi hissə və birləşmələrində "Açıq qapı" günü keçirildi. Həmin gün hərbi hissələrin qapısı hamının üzünə açıq idi. Bu tədbir ictimaiyyət nümayəndələri tərəfindən böyük rəğbətlə qarşılandı.***



Budur, əsgər valideynləri, yaxın qohumlar yavaş-yavaş nəzarət-buraxılış məntəqəsinin qarşısına toplaşırlar. İmkan tapıb hərbi hissənin zabiti mayor Vüqar Şıxlinski ilə söhbət aparıram. Bu zabit görkəmli hərb xadimi, rus artilleriyasının Allahı sayılan əfsanəvi general Əlağa Şıxlinskinin nəslindəndir. Bu nəslin nümayəndələri arasında çoxlu sayda zabit yetişib. Söhbət zamanı ulu babalarının şan-şöhrətiylə fəxr etdiyini bildirən V.Şıxlinski xidmət etdiyi hərbi hissənin yaranma tarixindən qısaca danışır. "Gördüyünüz bu hərbi hissə 18 dekabr 2013-cü ildə Azərbaycan Respublikası Müdafiə nazirinin müvafiq əmri ilə yaradılıb. Hərbi hissəmizin şəxsi heyəti üzərinə düşən tarixi məsuliyyəti dərk edərək, döyüşə hazırlıq səviyyəsini günbəgün artırır, Vətən, xalq qarşısında müqəddəs borcunu şərəflə yerinə yetirir. Şəxsi heyətimiz Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması üçün Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin döyüş əmrini yerinə yetirməyə hazır və qadirdir", - deyə zabit söhbətini bitirir.

Mayor Mirəhməd Seyidov isə "Açıq qapı" gününün keçirilməsinin əhəmiyyətindən danışır. O qeyd edir ki, belə tədbirlərin mütəmadi keçirilməsi əsgər valideynlərinin ürəyincədir, övladlarının harada, hansı şəraitdə xidmət keçməsini öz gözləri ilə görüb arxayın olurlar. Hərbi hissəmiz qonaqları yüksək səviyyədə qarşılamağa tam hazırdır. Özünüz də bunun şahidi olacaqsınız.



Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev, general-mayor Hikmət Həsənov, Tərtər rayonu İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, ictimaiyyət nümayəndələri, valideynlərin və əsgər yaxınlarının iştirak etdiyi tədbir böyük ruh yüksəkliyi ilə başlanır.

Əsgər Eşqin Əlizadənin yaxın qohumu Fəqan Quliyev söhbətində Azərbaycan əsgərinin birinci növbədə işğal altındakı torpaqlarımızı azad etməyə, Ali Baş Komandanın hər an əmrinə hazır olmalarını önə çəkərək, ölkə Prezidentinin "Bir həftə ərzində Ermənistanda daş-daş üstə qalmaz" sözlərini xatırladır, bu gün xalqla ordunun sıx birləşdiyini və Vətən torpağı uğrunda şəhid olanların xatirəsinin daim qəlblərdə yaşayacağını, "Qələbə Azərbaycan Ordusunun olacaq", deyərək, əsgərlərə şərəfli xidmətlərində uğurlar arzulayır.

"Açıq qapı" günündə Tərtər rayonundan 21 təşkilatın - məktəb, uşaq bağçaları xəstəxana, bələdiyyə və digər qurumların nümayəndələri fəal iştirak edirlər. Müdafiə Nazirliyinin nümayəndələri, yerli icra strukturunun rəhbər şəxsləri, valideynlər və ziyarətçilər əvvəlcə şəxsi heyətin sağlamlığı ilə maraqlanmaq üçün hərbi tibb məntəqəsi ilə tanış olurlar. Sualları tibb xidməti zabiti Asif Hüseynov cavablandıraraq müasir avadanlıqlarla təmin olunmuş qəbul, sarğı və başqa otaqlar barədə ətraflı məlumat verir. Sonra onlar şəxsi heyətin camaşırxana, yataqxana, yeməkxana, ideoloji otaqlarını bir-bir gəzərək məişət şəraitinə, xidməti və inzibati binalara baş çəkirlər. Yaradılan məişət şəraitinə görə razılıqlarını bildirən əsgər valideynlərinin simalarında sevinc, fərəh hissi apaydın görsənir. Əsgər anası Kəramət Xanlarova, Tərtər rayon 1 saylı orta məktəbin direktoru Nəcibə Muradova, Seydimli kənd tam orta məktəbinin psixoloqu Küşfarə Cəfərova, müəllimlərdən Firəngiz Aqami və Hicran Dəmirova ideoloji otağa daxil olur, şəxsi heyəti salamlayırlar. Ziyarətçilər arasında olan şəhid anası Maarifə Qaçayeva oğlu Elbrus Qaçayevin 1993-cü ilin 27 dekabrında Beyləqan istiqamətində gedən ağır döyüşlərdə şəhid olmasından danışaraq, əsgərləri qələbə naminə savaşa hazır olmağa çağırır.

Sonra ziyarətçilərin hərbi hissə ərazisində nümayiş olunan atıcı silahlarla, onların taktiki-texniki xüsusiyyətləriylə, texnikalarla və zəruri avadanlıqlarla təchiz edilmiş tibbi yardım maşınlarıyla tanışlığı başlayır. General-mayor Rasim Əliyev əsgər valideynləri ilə söhbətlərində bildirir ki, gördüyünüz müasir hərbi şəhərcik və onun hərtərəfli təminatı dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin orduya göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. "Siz valideynlər dövlətimizin öz əsgərlərinə yaratdığı bu şəraiti görüb övladlarınızdan tam arxayın ola bilərsiniz. Ordumuz əvvəlki illərin ordusu deyil. Bu gün bizim qüdrətli, müasir texnika ilə təchiz olunmuş ordumuz var. Bununla hər bir Azərbaycan vətəndaşı qürur duymalıdır".

Xalqla ordunun birliyindən, Qarabağ müharibəsinin birinci mərhələsində tərtərlilərin qəhrəmanlıqlarından söhbət açan Tərtər rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov işğal altında olan torpaqlarımızın tezliklə azad olunacağına, qaçqın və köçkünlərimizin ata-baba yurdlarına qayıdacağına əminliyini vurğulayır.

Tərtər rayon 2 saylı orta məktəbin 11-ci sinif şagirdi Elvin İsmayılzadə AK-74 silahını cəld, çevik sökür və yığır, bu silah haqqında ətraflı məlumat verir.

"Açıq qapı" günündə hərbi hissə komandanlığı tərəfindən xidmətdə fərqlənən bir qrup hərbi qulluqçunun təltif edilməsi və valideynlərə əsgər övladlarının nümunəvi xidmətinə görə təşəkkür məktublarının təqdim olunması ictimaiyyət nümayəndələri tərəfindən xüsusi bir sevinclə qarşılanır.

Digər hərbi hissədə də valideylərin, ictimaiyyət nümayəndələrinin şəxsi heyətin yaşayış və məişət şəraiti ilə tanışlığı davam edir. Burada əsgər yeməkxanasına baş çəkən ziyarətçilər şəxsi heyət üçün hazırlanan xörəklərlə maraqlanırlar. Milli xörəklərin bişirilməsinə önəm verildiyini diqqətə çatdıran baş aşpazlar Mətanət Məmmədova və Gültəkin Vəliyeva Vətənin, torpağın keşiyini çəkən əsgərlərin xidmətində dayanmağa borclu olduqlarını bildirirlər. Arifə Axundova, Aybəniz Quliyeva, Cəmilə İsmayılova, İlahə Ağamalıyeva və başqaları şəxsi heyətin arzuladığı xörəkləri bişirir və yemək hazırlanarkən əsasən onların istəklərini nəzərə alırlar.

Əsgər valideynlərinə yaxınlaşıb "Açıq qapı" günü ilə bağlı fikirlərini öyrənirəm. Əsgər atası Teymur Hüseynov ailə üzvləri və yaxın qohumları ilə birlikdə Salyan rayonunun Şorsulu kəndindən oğlu əsgər Seymur Hüseynzadəyə baş çəkməyə gəlib. Onlar hərbi hissədə yaradılan şəraitdən razı qaldıqlarını deyərək, belə tədbirlərin vacibliyini vurğulayırlar.

Əsgər anası Kəmalə Babayeva isə Bakı şəhərindən 1 il 4 aydır xidmətdə olan oğlu əsgər Firuz Əliyevin ziyarətinə gəlib. "Yaradılan yüksək şərait dövlətimizin başçısı Ali Baş Komandan İlham Əliyevin orduya, əsgərə göstərdiyi diqqətin nəticəsidir. Sağ olsun, Prezidentimiz", - deyən əsgər anası yaradılan müasir məişət şəraitindən məmnunluğunu ifadə edir. Övladlarını ziyarətə gələn başqa valideynlər də "Açıq qapı" gününün təşkili ilə bağlı Ali Baş Komandan İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildirirlər.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

---

***"N" hərbi hissəsində "Açıq qapı" günü ilə bağlı bir qələbəlik vardı. Övladları ilə görüşə gələn valideynlərlə yanaşı, şəhid ailələrinin, dövlət təşkilatlarının, ictimai birliklərin nümayəndələri, məktəblilər bu tədbirə qatılmışdılar.***

Ucaboylu, hərbçisayağı, məğrur duruşlu bir nəfər qonaqların arasında diqqətimi cəlb elədi. Onu başqalarından fərqləndirən təkcə xarici görkəmi deyildi. Goranboy rayonundan "Açıq qapı" günündə iştirak etmək üçün gəlmiş Məhəmməd Həsənovun sinəsində Azərbaycanın Milli Qəhrəmanının döş nişanı payız günəşinin şüalarında bərq vururdu. Hamının diqqətini cəlb edən və qəhrəmanımıza ilk baxışdan rəğbət hissi oyadan da bu idi.

Erməni işğalçıları torpaqlarımıza göz dikəndə və Vətənimizin ayrılmaz hissəsi olan Dağlıq Qarabağı Azərbaycandan qoparmağa çalışanda ilk silaha sarılanlardan biri də Məhəmməd müəllim idi. Həmin vaxtlarda Ermənistandan gəlmiş silahlı emissarlar ətraf bölgələrdə soydaşlarımıza qarşı terror aktları gerçəkləşdirir, günahsız insanları öldürür, öz dədə-baba torpaqlarından onları qovub çıxarmağa çalışırdılar. Belə bir vaxtda Vətən oğulları ilə çiyin-çiyinə Məhəmməd Həsənov da ermənilərə qarşı ölüm-dirim mübarizəsinə atıldı. Könüllülərdən ibarət tabora komandirlik etmiş Məhəmməd Həsənov Todan, Mənəşli, Erkəc, Qaraçinar, Talış və digər kəndlərin, eləcə də keçmiş Şaumyan rayonunun erməni quldurlarından təmizlənməsində xüsusi fəallıq və şücaət göstərib. Göstərdiyi rəşadətə görə ona Azərbaycanın Milli Qəhrəmanı adı verilib.

Məhəmməd Həsənov 1993-cü ildə Baki Ali Birləşmiş Komandirlər Məktəbini bitirərək xidmətini davam etdirib. O, polkovnik-leytenant rütbəsində ordu sıralarından ehtiyata buraxılıb. 2002-ci ildən cəsur Vətən oğlu Goranboy rayonunun Veyisli kənd orta məktəbinin direktorudur.

"Açıq qapı" günü ilə bağlı tədbir başlayana qədər Milli Qəhrəmanla görüşüb söhbət etdik.



- Bu gün mənim üçün bir fəxrdi ki, həm valideyn kimi, həm də vaxtilə ordu sıralarında Ermənistan silahlı birləşmələrinə qarşı vuruşmuş bir vətəndaş kimi Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təşəbbüsü ilə keçirilən "Açıq qapı" günündə iştirak edirəm, - Azərbaycan Respublikasının Milli Qəhrəmanı Məhəmməd Həsənov dedi. - Oğlum da bu bölgədə xidmət edir. Həm də məni iştirak etmək üçün bu tədbirə dəvət ediblər.

1991-1994-cü illərdə Azərbaycan Respublikasının çətin günlərində düşmənə qarşı döyüşərkən bəzən silah-sursatımız çatışmırdı. Ermənilər bu baxımdan bizi üstələyirdilər. İndi isə güclü rəhbərliyimiz var, dövlət başçısı ordumuza böyük qayğı göstərir. Güclü Silahlı Qüvvələrimiz, vahid komandanlıq mövcuddur. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun fəaliyyətini çox yüksək dəyərləndirirəm. Haçan baxırsan, görürsən ki, ya təlimlərdədir, ya da təzə hərbi hissələrin açılışında iştirak edir.

Mən tez-tez hərbçilərimizlə görüşürəm, tədbirlərdə oluram. Belə müasir hərbi hissələri görəndə qəlbim fərəh hissilə dolur. İndi hərbi hissələrimiz ən müasir döyüş texnikası və silah-sursatla təmin edilib. Əsgərlərimizin məişət şəraiti də yüksək səviyyədədir. Ona görə də döyüş bacarığı baxımından ordumuzda böyük irəliləyişlər var. Silahlı Qüvvələrimiz Cənubi Qafqazın ən güclü ordusu hesab edilir. Təmas xəttində ermənilər təxribatlara yol verdikdə bölmələrimiz soyuqqanlılıqla onların cavabını verir, düşmənə sarsıdıcı zərbələr vurur. Bütün bunlara görə qürur hissi keçiririk.

Arzu edirəm ki, yaxın zamanlarda Ali Baş Komandan İlham Əliyevin əmrilə doğma Qarabağımızı düşməndən azad edək, erməni işğalçıları üzərində qələbə qazanaq. Biz köhnə döyüşçülər də kənarda qala bilmərik və inanın ki, hər an ordumuzun yanında olacağıq. Mən ordumuza şərəfli işində uğurlar arzulayıram.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

---



Hava hücumundan müdafiə təyinatlı "N" hərbi hissəsində "Açıq qapı" gününə dəvət olunmuş valideynlər, dövlət və ictimai təşkilatların nümayəndələri, orta məktəblərin müəllim və şagirdləri bölmənin döyüş fəaliyyəti, həmçinin, şəxsi heyətin məişət şəraiti ilə yaxından tanış olublar.

"Açıq qapı" gününə həsr olunan mitinqdə çıxış edən ictimaiyyət nümayəndələri Nazim Eyvazov, Qaçay Məhərrəmov, Akif Əhmədov Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna xüsusi diqqətindən, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə ordunun döyüş qabiliyyətinin artırılması istiqamətində həyata keçirilən islahatlardan danışıblar. Çıxış edənlər ordu ilə xalqın sıx birliyini qeyd edərək həmişə döyüşə hazır olduqlarını bildiriblər.

Bölmənin ərazisində təşkil olunmuş sərgidə nümayiş etdirilən yeni silah-sursat və təminat növləri qonaqlarda xüsusi maraq doğurub. Silahlanmada olan müasir döyüş texnikaları və onların döyüş qabiliyyəti barədə hərbi hissəyə gələn qonaqlara ətraflı məlumat verilib. Hərbi hissənin zabitləri mayor Əli Verdiyev, kapitan Ruslan Qəmbərov, baş leytenant Şaiq Zeynalov və başqaları çıxışlarında xalqla ordu birliyinin güclənməsindən fərəh hissi keçirdiklərini və belə tədbirlərin şəxsi heyətin vətənpərvərlik tərbiyəsində önəm kəsb etdiyini vurğulayıblar.

**Polkovnik-leytenant**
**Natiq ƏHƏDOV,**
**"N" hərbi hissəsi**

---

***"N" hərbi hissəsinin nəzarət-buraxılış məntəqəsinin qarşısında da böyük canlanma var idi. "Açıq qapı" günündə övladına baş çəkməyə gələn valideynlərin üzü gülürdü. Bir azdan qonaqlar hərbi hissənin ərazisinə daxil oldular. Zabit Ziyad Tağıyev onları hərbi hissənin ərazisi ilə tanış etməyə başladı. Qonaqlar əsgər yataqxanasına baş çəkib şəxsi heyət üçün yaradılan şəraitlə yaxından tanış oldular. Yataqxananın dəhlizindəki divar mətbuatına, Milli Qəhrəman Mübariz İbrahimovun foto-güşəsinə, döyüş vərəqələrinə maraqla baxdılar.***



Sonra əsgər geyimləri nümayiş etdirildi. Qonaqlar hərbi hissənin tibb məntəqəsinə baş çəkib buradakı şəraitlə yaxından tanış oldular. Öz təəssüratlarını bizimlə bölüşən əsgər atası Şahin Urtullayev bildirdi ki, oğlu Tərlan altı aydan çoxdur, burada xidmət edir. "O həmişə hərbi hissədəki şəraitdən razılıq edirdi. "Açıq qapı"nın keçirilməsi yaxşı oldu ki, övladımızın xidmət etdiyi hərbi hissə ilə yaxından tanış olduq. Gördüklərimizdən ürəyimiz dağa döndü. Övladlarımıza belə diqqət və qayğı göstərdiklərinə görə Silahlı Qüvvələrin Ali Baş Komandanı möhtərəm Prezidentimiz İlham Əliyevə, Müdafiə naziri general-polkovnik Zakir Həsənova minnətdarlığımı bildirirəm. Doğrudan da, qısa müddət ərzində ordumuz sürətlə inkişaf edib".

- Bacım oğlu Şahin Əliyev bu hərbi hissənin əsgəridir, - deyə Baxış Məhərrəmov bildirdi. - Bu gün hərbi hissədə gördüklərimə görə fərəhlənirəm. Şəxsi heyətin məişət şəraiti ilə yaxından tanışlıq bizi çox sevindirdi. Əsgərlərimizin istirahəti, məişəti üçün gözəl şərait yaradılıb. Belə hərbi hissədə xidmət etmək olduqca xoşdur. Mən Silahlı Qüvvələrimizdə xidmət edən bütün zabit və əsgərlərimizə uğurlar arzulayıram. İnanıram ki, onlar yaxın vaxtlarda bizi qələbə müjdəsi ilə sevindirəcəklər.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

---

***İstirahət gününə təsadüf edilən tədbir əsgər valideynlərinin, ictimaiyyət nümayəndələrinin hərbi hissələrdə yaradılan şəraitlə yaxından tanış olması məqsədini daşıyırdı. Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsində qonaqları general-mayor İkram Əliyev salamladı və əsgərlər üçün yaradılan məişət şəraiti ilə bağlı qısa məlumat verdi. Əlavə etdi ki, son vaxtlar görülən işlər və yaradılan şəraitlə bağlı gün ərzində tanış olmaq imkanı olacaq.***



"Açıq qapı" günü ilə bağlı keçirilən tədbirə Kürdəmir rayon İcra Hakimiyyəti başçısının müavini Vəsilə Əsgərli, orta məktəblərin müəllim və şagirdləri, ictimaiyyətin nümayəndələri, əsgər valideynləri qatılmışdılar. Tədbir hərbi hissənin həyətində ulu öndər Heydər Əliyevin abidəsinin ziyarəti ilə açıq elan olundu. Daha sonra qonaqlar sıra meydanında uçuş heyəti üçün nəzərdə tutulmuş geyim əşyaları, əsgərlərin qidalanması üçün nəzərdə tutulan ərzaq çeşidləri və normaları ilə yaxından tanış oldular. Döyüş zamanı kütləvi qırğın silahından qorunmaq üçün qaydalar qonaqların marağına səbəb oldu. Atıcı silahlar və raket qurğuları haqqında polkovnik-leytenant Cərullah Ağayev qonaqlara geniş məlumat verdi.

Əsgər yataqxanasına baş çəkən qonaqlar burada məişət şəraitilə yaxından tanış oldular. Müşahidəçi zabit bildirdi ki, əsgərlər üçün ən müasir şərait yaradılıb. Dəhlizdəki divar mətbuatı, Milli Qəhrəman Mübariz İbrahimovun xatirə güşəsi isə məktəblilərin dərin marağına səbəb oldu.

Əsgər yeməkxanasına baş çəkən qonaqlar mətbəxdə də oldular. Burada qadın mülki aşpazlar tərəfindən milli xörək növlərinin hazırlanması, müasir dövrün tələblərinə cavab verən avadanlıqlar barədə onlara məlumat verildi.

Hərbi hissənin tibb məntəqəsində olan qonaqlar burada yaradılan şəraitlə də yaxından tanış oldular. Kürdəmir rayon İcra Hakimiyyəti başçısının müavini Vəsilə Əsgərli tibb məntəqəsində dərman perapararatları və digər tibbi avadanlıqlarla tanış olandan sonra dövlət başçısının orduya xüsusi diqqətini, Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən ayrılan vəsaitin təyinatı üzrə şəxsi heyətə çatdırıldığını qeyd etdi.

Hərbi hissədə ən vacib sahələrdən biri də hamam-camaşır xidmətinin göstərilməsidir. Əsgər yataqxanasının yaxınlığında yerləşən yeni istifadəyə verilmiş camaşırxanada şəxsi heyətin yataq dəstlərinin, dəsmalların, geyimlərin təmizlənməsi yüksək səviyyədə təşkil olunub.

Cəlilabad rayonundan gələn əsgər atası Fariz Quliyev oğlunun xidmət yeri ilə yaxından tanış olduğunu, yaradılan məişət şəraitindən son dərəcə razı qaldığını bildirdi.

Şəxsi heyətin tədris otaqlarında olan qonaqlar burada əyani dərs vəsaitləri ilə tanış oldular. Onların suallarını təcrübəli zabitlər ətraflı cavablandırdılar.

Əsgər Maqsud Əzizovun atası Yasər də ordu rəhbərliyinə dərin təşəkkürünü bildirdi. Əlavə etdi ki, hərbi hissələrdə "Açıq qapı" gününün keçirilməsi olduqca təqdirəlayiq haldır. "Belə tədbirləri ürəkdən bəyənirik, çünki biz burada övladlarımızın xidməti, şəraiti ilə yaxından tanış olmaq imkanı qazanırıq".

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

Milli Qəhrəmanlarımız

# Onların fədakarlığı unudulmayacaq



***İnsan ömrünə yazılan faciələr, dəhşətli qətl hadisələri, Tanrının bəşər övladını sınağa çəkməsi, onun ən çətin məqamlarda öz iradəsini ortaya qoyaraq həmin anda dəyərlərini idarə etməsi, məhz fərdin bir varlıq olaraq kimliyini üzə çıxarır.***



Xalqımız əsrlər boyu çox faciələrlə üzləşib. Faciələrimizdən biri də 28 oktyabr 1995-ci ildə Bakı metrosunda baş verdi. "Ulduz" və "Nərimanov" stansiyaları arasında hərəkətdə olan qatarda qəfil baş verən yanğın yüzlərlə soydaşımızın həyatına son qoydu.

Həmin metro faciəsindən 20 il ötür. Xalqımız hər il bu faciənin baş verdiyi günü böyük ağrı ilə qeyd edir.

Metro faciəsində Cəmşid Naxçıvanski adına Hərbi Liseyin zabiti baş leytenant Çingiz Babayev, kursantlar Ruslan İsayev, Samir Məmmədov və Nicat Səfərov öz həyat və sağlamlıqları üçün mövcud olan təhlükəyə məhəl qoymadan faciə qurbanlarının xilas olunmasında xüsusi şücaət və qəhrəmanlıq göstərərək həlak olmuşdular. Göstərdikləri qəhrəmanlığa görə ulu öndər Heydər Əliyev 3 noyabr 1996-cı il tarixli fərmanı ilə baş leytenant Çingiz Adil oğlu Babayevi "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı, kursantları isə "İgidliyə görə" medalı ilə təltif etmişdi.

Ənənəvi olaraq bu il də oktyabrın 28-də C.Naxçıvanski adına Hərbi Liseydə faciənin ildönümü ilə bağlı anım tədbiri keçirildi. Tədbirdən əvvəl Milli Qəhrəmanın "Ulduz" metro stansiyasındakı büstü ziyarət edildi. Sonra Təlim və Tədris Mərkəzində keçirilən anım mərasimində Cəmşid Naxçıvanski adına Hərbi Liseyin, Təlim və Tədris Mərkəzinin, Bakı metropoliteninin, Yasamal rayon İcra Hakimiyyətinin nümayəndələri, Milli Qəhrəmanın və həlak olan kursantların valideynləri iştirak edirdilər.

Öncə ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni oxundu.

Tədbiri açıq elan edən Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəisi polkovnik Rüfət Əmirov Milli Qəhrəmanın qısa, amma mənalı həyat yolundan söz açaraq bildirdi ki, Çingiz Babayev liseyin 9 Milli Qəhrəmanından biridir. "Məqsədimiz sadəcə faciə qurbanlarının xatirəsini anılması deyil, onların qəhrəmanlığını, bir vətəndaş kimi öz xalqı və dövləti qarşısında xidmətlərinin təbliğ edilməsi vacib məsələdir. Onlar az ömür yaşasalar da, qəhrəmanlıqları ilə tarix yazdılar. Çingiz, Ruslan, Samir və Nicat kimi Vətənini, xalqını sevən oğullarımız hər an dövlət, Vətən, torpaq yolunda canlarından belə keçməyə hazırdırlar. Çingizin qəhrəmanlığı gənc nəsil üçün örnəkdir. Onun canı bahasına metro faciəsində insanları xilas etməsi əsl həyat məktəbidir. Biz qəhrəmanlarımızı heç vaxt unutmamalı, onların xatirəsini daim qəlbimizdə yaşatmalıyıq" polkovnik belə deyir.




Sonra Liseyin kursantları Milli Qəhrəmanın həyatı haqqında tamaşaçılara geniş məlumat verdilər. Yasamal rayon İcra Hakimiyyətinin nümayəndəsi Vaqif Məmmədov rayon rəhbərliyi adından anım mərasiminin təşkili üçün minnətdarlığını bildirdi. O da çıxışında qeyd etdi ki, yüzlərlə insanın həyatını xilas edən oğullarımız daim ürəklərdə, yaddaşlarda yaşayacaqlar.

Milli Qəhrəmanın atası Adil Babayev oğlu haqqında qürur hissi ilə danışaraq dedi ki, "Çingiz qısa, amma mənalı ömür yaşadı. Mən Çingizlə fəxr edirəm".

Çingiz Babayev haqqında yazılmış "Əfsanəvi Qəhrəman" kitabının müəlliflərindən Südabə Sərvi də bir Azərbaycan gəncinin ölümün gözlərinə dik baxaraq neçələrinin həyatını xilas etməsindən qürur hissi ilə danışdı.

Polkovnik Rəhim Səmədov isə çıxışını bu misralarla bitirdi:

*Şəhidlik - işıqdı, bu gur işığı*
*Bu gündən sabaha salan oğullar.*
*Tarixin özünü yaradıb gedən,*
*Tarixdə tarix tək qalan oğullar!*

Bəli, Çingiz, Ruslan, Samir və Nicat Vətən üçün yaşadılar. Cəsarətli addımları ilə tarixə həmişəlik adlarını yazdılar.

Sonda rejissor Elnur Əliyevin Milli Qəhrəman haqqında çəkdiyi sənədli film nümayiş etdirildi.

**Leytenant Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

Hüquq guşəsi

# Soruşun, cavab verək



***- Hərbi qulluqçulara növbəti məzuniyyətin verilməsi kimlər tərəfindən müəyyən edilir?***

- Hərbi hissə və bölmələrdə yanvarın 1-nə kimi yeni il üçün hərbi qulluqçuların növbəti məzuniyyətləri planı tutulur və hərbi qulluqçuların müvafiq kateqoriyalarına məzuniyyət vermək səlahiyyəti olan rəis tərəfindən təsdiq olunur və şəxsi heyətə elan edilir.

Hərbi qulluqçulara növbəti məzuniyyətlər bütün təqvim ili boyu bərabər şəkildə hər ay hərbi hissə hərbi qulluqçularının 10-12 faizinin məzuniyyətdə olması hesabı ilə verilir.

Məzuniyyət vermək səlahiyyəti olan rəislər hərbi qulluqçuların ayrı-ayrı kateqoriyalarına döyüş hazırlığının (tapşırığın yerinə yetirilməsinin) gərgin dövründə məzuniyyətlərin aylıq normasını azalda bilər və eləcə də ilin başqa vaxtında bu normaları artıra bilər.

Döyüş əməliyyatlarında, habelə Azərbaycan Respublikasının müdafiəsi zamanı hərbi xidmətin digər vəzifələrini yerinə yetirərkən xəsarət (yaralanma, travma, kontuziya) almış və ya şikəst olmuş hərbi qulluqçulara növbəti məzuniyyətdən ilin istənilən münasib vaxtında istifadə etmək hüququ verilir.

Hərbi qulluqçular (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından başqa) növbəti məzuniyyət ərzində xəstələnərlərsə, onlar sağaldıqdan sonra məzuniyyətin müddəti istifadə edilməmiş günlərin sayı qədər artırılır. Bu halda məzuniyyətin müddəti onu verən rəis tərəfindən uzadılır.

Hərbi qulluqçunun növbəti məzuniyyətdən geri çağırılmasına xüsusi əhəmiyyətli xidməti zərurət yarandıqda, korpus (diviziya) komandiri, ona bərabər və ondan yuxarı birbaşa rəisin icazəsi ilə yol verilə bilər. Növbəti məzuniyyətdən geri çağırılanda onun istifadə olunmamış hissəsi adətən cari ildə verilir. Bu vaxt əgər məzuniyyətin istifadə olunmamış hissəsi 10 gün və artıq olarsa, onda geri çağırıldığı məntəqədən uzaq olmamaq şərti ilə məzuniyyət yerinə getməyə və qayıtmağa pul verilir və yola sərf olunan günlər məzuniyyətə əlavə edilir.

10 günədək qısa müddətli məzuniyyətlər dinc və müharibə dövründə hərbi qulluqçulara həvəsləndirmə qaydasında (dinc dövrdə yalnız müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularına) və ailə vəziyyətinə görə verilir.

Qısa müddətli məzuniyyət növbəti məzuniyyətin hesabına daxil edilmir.

**Müdafiə Nazirliyi**
**Hüquq İdarəsi**

Ordu və cəmiyyət

# "Mən ordumuza inanıram"

***Qəribədir. İnsan bir peşəyə, bir sənətə ürəkdən bağlandısa, nədənsə, heç vaxt ondan ayrıla bilmir. Gücü və bacarığı çatdığı qədər ömrünün sonuna kimi öz peşəsinə sədaqətli olur. Bir vaxtlar zabit olmuş, hərbi əməliyyatlarda iştirak etmiş, indi isə "N" hərbi hissəsində klub rəisi işləyən Gəray Hümmətov kimi.***



Keçmiş döyüşçü Lerik rayonunda, dağlar qoynunda dünyaya göz açıb. Orta məktəbi bitirdikdən sonra Tümen Ali Hərbi Mühəndis Komandirləri Məktəbinə daxil olub və mühəndis-istehkamçı ixtisasına yiyələnib. 1992-ci ildə hərbi təhsilini bitirərək Vətənə dönüb, doğma ordumuzun sıralarında xidmətə başlayıb. Həmin günlərdə torpaqlarımızın azadlığı uğrunda qanlı döyüşlər gedirdi. Gəray kimi ixtisaslı zabitlərə orduda böyük ehtiyac var idi. Yenicə formalaşan ordumuzun sıralarında xidmətə başlayan Gəray ilk günlərdən döyüşlərə atıldı. İstehkamçı kimi üzərinə düşən tapşırıqları cəsarətlə, hünərlə yerinə yetirdi. Onun döyüş yolu Ağdamdan, Ağdərədən, Füzulidən və başqa bölgələrdən keçdi. Gənc zabit biliklərini və təcrübəsini əsgərlərə də öyrətməyə çalışırdı. Çalışırdı ki, Azərbaycan əsgəri bacarıqlı və peşəkar olsun. Biliyi və təcrübəsi ilə düşmənə meydan oxusun.

Döyüş illəri artıq arxada qalsa da, Gəray Hümmətov yenə də doğma ordumuzda xidmətini davam etdirir, üzərinə düşən tapşırıqları yerinə yetirirdi. 2007-ci ildə baş verən dəhşətli hadisə olmasaydı, Gəray bu gün bəlkə də xidmətini mülki vətəndaş kimi yox, zabit kimi davam etdirəcəkdi. O, cəbhə bölgəsində növbəti tapşırığını yerinə yetirərkən düşmən minasına tuş gəlir və ayağından ağır yaralanır.

Gəray Hümmətov neçə il əvvəl ordu sıralarından tərxis olunsa da, hərbi həyatdan, hərbi hissədən uzaq düşməyib. Bu gün o mülki geyimdə "N" hərbi hissəsində klub rəisi işləyir. Yenə də əsgərlərlə, zabitlərlə üzüzədir. Yenə də hərbi marşların sədaları altında işləyir.

- Şəxsi heyətin asudə və istirahət vaxtlarını səmərəli təşkil etməyə çalışırıq, - deyir Gəray Hümmətov . - Tez-tez vətənpərvərlik mövzusunda filmlər nümayiş etdiririk. Əsgərlərimiz bu filmlərə maraqla tamaşa edirlər. Klubda kitabxanamız da var. Ədəbiyyata həvəs göstərən əsgərlər tez-tez gəlib kitab oxuyurlar. Asudə vaxtlarını səmərəli keçirirlər.

Ordumuzun qüdrətinin, gücünün artması məni çox sevindirir. Bu gün Silahlı Qüvvələrdə aparılan islahatlar, keçirilən irimiqyaslı təlimlər addım-addım bizi qələbəmizə yaxınlaşdırır. Mən çalışdığım bu hərbi hissədə də quruculuq işləri aparılır. Yeni əsgər yataqxanaları tikilir, istilik sistemləri yenilənir, abadlıq işləri görülür. Əsgərlər daha yaxşı şəraitdə xidmət edirlər, təlim-məşqlərdə fəallıq göstərirlər. İllərdən bəri ordunun içində olan bir təcrübəli zabit kimi deyim ki, bu gün daha güclü və qüdrətliyik. Zabit və əsgərlərimiz hər an torpaqlarımızı erməni işğalçılarından azad etməyə hazırdırlar.

Son vaxtlar ictimaiyyətin də orduya rəğbəti, məhəbbəti artmaqdadır. Bu gün gənclər ordu sıralarına daha həvəslə gəlirlər. Valideynlər övladlarını hərbi xidmətə toy-bayramla yola salırlar. Ordumuzun qazandığı uğurlar cəmiyyətdə də müsbət qarşılanır. Ordu ilə xalqın birliyi daha da möhkəmlənir, hər kəsin orduya inamı artır.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

Vətənpərvərlik

# Özümə ideal seçdiyim zabitlərin davamçısı olacağam

***Hərb sənətinə marağım erkən yaşlarımdan oyanıb. Bu sənətə sevgini məndə Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canını əsirgəməyən dayım Aydın Məmmədovun qısa, lakin şərəfli ömür yolu yaradıb.***

Qazax rayonunun Qaymaqlı kəndində dünyaya göz açmışam. Kəndimiz işğalçı Ermənistanla sərhəddə yerləşir. Bu şəraitdə yaşamaq insanda tam fərqli bir düşüncə formalaşdırır, elə bil adama vətənpərvərlik, mübarizlik, qorxmazlıq keyfiyyətləri aşılayır. Dayım 1992-ci ildə şəhid olub. Onun haqqında daim ailəmizdə, nəslimizdə, məktəbimizdə, kəndimizdə fəxrlə danışılır. Məktəbimiz də onun adını daşıyır. Hər səhər onun büstü qarşısından keçəndə özümü ona və bütün şəhidlərimizə borclu sanırdım. Məktəbdəki tədbirlərə şəhid valideynləri olaraq nənəm və babam da dəvət olunurlar. Dayımın anım günlərində bütün şagirdlər, müəllimlər mənə xüsusi diqqətlə, həsədlə baxardılar. Mən isə qürur hissi ilə dayımın yolunu davam etdirib hərbçi olacağımdan, Vətənimə, millətimə layiqli zabit olmaq istəyimdən danışardım. Bəlkə də sadəcə dilim deyil, damarlarımda axan qanım, hərb tarixində rus artilleriyasının Allahı adlanan general-leytenant Əlağa Şıxlinski, ilk azərbaycanlı hərbi təyyarəçi Fərrux ağa Qayıbov, ilk azərbaycanlı hərbi topoqraf general İbrahim ağa Vəkilov, diviziya komandiri general-mayor Cavad bəy Şıxlinski, İbrahim ağa Usubov kimi görkəmli oğullar yetişdirmiş qədim bir el-obanın havası, suyu danışdırırdı məni.



Uşaq vaxtlarımdan hamı mənə deyərdi ki, gör kimin adını daşıyırsan? Tarixdən bilirəm ki, Şah İsmayıl böyük şəxsiyyət, görkəmli sərkərdə olub. Bəlkə də onun kimi gələcəkdə bir sərkərdə olmaq istəyi də məni Cəmşid Naxçıvanski adına Hərbi Liseyə gətirdi. Fəxr edirəm ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənov kimi bir çox məşhur generalların, yüksək rütbəli zabitlərin vaxtilə təhsil aldıqları bir məktəbin kursantıyam.

Yaxşı zabit olmaq üçün bütün həyatını Vətənə həsr etmək, vətənpərvər, cəsur, savadlı və ədalətli olmaq gərəkdir. Bu keyfiyyətləri bizlərə aşılamaqdan ötrü liseyin komandir və müəllim heyəti öz bacarıqlarını əsirgəmir.

Azərbaycanın hər yerində olduğu kimi, bizim liseydə də təhsil və təlim-tərbiyə müasir səviyyədə qurulub. Bütün bunlar bizə imkan yaradır ki, hərbin sirlərinə dərindən yiyələnək və əsl zabitə xas olan zəruri vərdişləri mənimsəyə bilək.

Doğma qəzetimizin tribunasından çıxış edərək söz verirəm ki, gələcəyin layiqli zabiti olmaq üçün əlimdən gələni əsirgəməyəcək, özümə ideal seçdiyim generalların davamçısı olacağam.

**Kursant**
**Şahismayıl KƏRİMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**

# Xarici hərbi xronika

## Yeni təlim-məşq helikopteri

Məşhur helikopterlər istehsalçısı Enstrom Helikopter şirkəti mülkü və hərbi təyinatlı pilotların öyrədilməsi üçün nəzərdə tutulmuş ikiyerli, yüngül təlim-məşq helikopterinin uçuş sınaqlarını həyata keçirməyə başlayıb. TH180 maşını 216 at gücündə mühərriklə təchiz edilib. Onun çəkisi 1021 kiloqramdır.

## Portuqaliya yüngül zirehli avtomobil alacaq

Portuqaliyanın Milli Müdafiə Nazirliyinin verdiyi məlumata görə, bu ölkə 192 ədəd zirehli avtomobilinin əldə edilməsi üzrə tender elan etməyi planlaşdırıb. Zirehli döyüş maşınlarının alınması 2015-26-cı illər üçün nəzərdə tutulmuş layihə çərçivəsində həyata keçiriləcək. Bundan başqa planda 117 ədəd nəqliyyat avtomobili, 10 ədəd komanda-qərargah maşını və 9 ədəd tənzimləmə briqadası üçün avtomobil, 20 ədəd tankəleyhinə, 27 ədəd tibb maşınının, Brigint briqadası üçün isə 9 ədəd tankəleyhinə özüyeriyən qurğunun alınması da nəzərdə tutulub.

## Stels B-2 bombardmançısı

Stels B-2 bombardmançısı ABŞ Hərbi Hava Qüvvələrində istismara verilən döyüş təyyarələrindən biridir. Lakin onun modernləşdirilməsinə və texniki xidmət şəraitinin yaxşılaşdırılmasına ehtiyac var. Silahlanmada 20-yə qədər belə bombardmançı təyyarə vardır. Verilən məlumata görə, təyyarənin özünümüdafiə kompleksinin, bort kompüterinin və antena sisteminin yeniləşdirilməsi vacibdir. Yeni proqram təminatı ona müasir silahlardan istifadə etməyə imkan verir.

## Çinin kosmik peyki uzunmüddətli uçuşa hazırlaşır

2018-ci ildə Çin kosmik peyk buraxacaq. 2022-ci ildə isə yeni stansiyanın tikintisi başa çatacaq. Bu haqda kosmik gəmilərin idarə edilməsi üzrə proqramın konstruktoru Çjan Baynan məlumat verib. Daha sonra o xarici mütəxəssislərlə birlikdə çoxlu sayda tədqiqat işlərinin aparıldığını bildirib. Bu tədqiqatlarda insanın uzun müddət kosmosda qalmağa əngəl olan problemlərin həll edilməsi yolları öyrənilir.

## Fransa tanklarını modernləşdirir

Fransanın Müdafiə Nazirliyinin hərbi texnikanın alınması üzrə agentliyi Nexter Sistems şirkətinə 200 ədəd "Leklerk" və 8 BREM DCL-lərin modernləşdirilməsini sifariş edib. Bu haqda "Altair" Polşa nəşriyyatı məlumat verib. Sifarişin qiyməti 330 milyon avro təşkil edir. Modernləşdirilmiş maşınlar silahlanmaya 2020-ci ildə qəbul ediləcək. "Leklerk" döyüş maşınları yeni cihazlar, radiostansiya və komanda rabitə sistemi ilə təchiz olunacaq. Bu zaman tankların zirehli mühafizəsi də diqqətdə olacaq. Bu da onların mina zədələrindən qorunmağını təmin edəcək. "Leklerk"lərin modernləşdirilməsi onların istismar müddətini uzatmağa imkan verəcək. Maşınlar 2040-cı illədək silahlanmada qalacaq. Modernləşdirmənin aparılması, ilk növbədə, yeni döyüş maşınlarının təkmilləşdirilməsinə, şəxsi heyətin və texnikanın informasiya mərkəzi şəbəkə sistemi ilə təmin olunmasına imkan verəcək.

## "Serera" kəşfiyyat peyk sistemi

Fransanın silahlanma üzrə baş direktoru Airbus Defens, Spas və Thales şirkətləri ilə üç ədəd "Serera" elektromaqnit kəşfiyyat sisteminin hazırlanması üzrə müqavilə imzalayıb. Müqaviləyə əsasən, kəşfiyyat sistemi 2020-ci ildə istismara veriləcək. Bu sistem yerüstü kəşfiyyat stansiyaları tərəfindən ələ keçirilməyən elektromaqnit siqnalları qəbul etməyə qadir olacaq. Onun istehsalı və kosmosa buraxılması, həmçinin, yerüstü istifadəsi üçün cihazlandırma ilə birlikdə qiyməti 450 milyon avro təşkil edir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA**

# İdman

## Azərbaycan paralimpiyaçıları "Rio-2016" Olimpiadasına 11-ci lisenziya qazanıblar




Azərbaycan idmançıları gələn il Rio-de-Janeyroda keçiriləcək Paralimpiya Oyunlarına növbəti lisenziya qazanıblar. Qətərin paytaxtı Dohada təşkil olunan atletika üzrə dünya çempionatının 100 metr məsafəyə qaçış yarışlarında mübarizə aparan idmançımız Yelena Çebanu gümüş medal əldə edib. Bununla, atletimiz "Rio-2016" Paralimpiya Oyunlarına birbaşa lisenziyanı təmin edib. Bu, Azərbaycan Milli Paralimpiya Komitəsinin qazandığı 11-ci lisenziyasıdır. Yelena Çebanudan əvvəl nizətullama yarışlarında İradə Əliyeva, uzunluğa tullanmada Elçin Muradov, cüdoçularımız İlham Zəkiyev (100 kq-dan yuxarı), Səbinə Abdullayeva (57 kq), Ramil Qasımov (73 kq), Bayram Mustafayev (60 kq), üzgüçülər Dmitri və Roman Saley, pauerliftinq idmanı üzrə Elşən Hüseynov (107 kq) və uzunluğa tullanma üzrə Kamil Əliyev "Rio-2016" Paralimpiya Oyunlarına lisenziya qazanıblar.

## Çempionlar Liqası: Bakının "Lokomotiv" komandası "Dinamo Kazan"a məğlub olub



Bakının qadınlardan ibarət "Lokomotiv" voleybol klubu Çempionlar Liqası yarışlarında ilk oyununu oktyabrın 28-də səfərdə keçirib.

Təmsilçimiz Rusiyada "Dinamo Kazan" komandasının qonağı olub. Finlandiyalı hakim Kari Partiainenin idarə etdiyi oyunda "Dinamo Kazan" komandası 3:1 hesabı ilə qalib gəlib. Çempionlar Liqası yarışlarının "A" qrupunda "Lokomotiv", "Azərreyl" (hər ikisi Azərbaycan), "Dinamo Kazan" (Rusiya) və Almaniyanın "Alyants Ştutqart" komandaları mübarizə aparır. Bu qrupda yer alan digər təmsilçimiz "Azərreyl" isə ilk görüşündə Almaniya təmsilçisindən üstün olub - 3:0.

## Trabzonda "offroad" yarışlarında Azərbaycan təmsilçiləri də uğur qazanıblar



Oktyabrın 25-də Türkiyənin Trabzon şəhərində Qara dəniz Offroad Platforması İsmət Dönməz adına Regional Kubokunun 3-cü mərhələsi keçirilib. Azərbaycan Avtomobil Federasiyasının dəstəyi ilə ölkəmizi bu yarışda təmsil edən Rüfət Nəsibov və Əhməd Həsənov S2 kateqoriyasında 2-ci yer, Namazi Orucov və Zaur Mikayılov isə S4 kateqoriyasında 3-cü yer tutublar. İsmət Dönməz adına Regional Kubokunun final mərhələsində 44 iştirakçı 22 "offroad" avtomobili ilə iştirak edib.

## Noyabrda cüdo üzrə Bakı şəhər açıq birinciliyi keçiriləcək



Bakı Şəhər Gənclər və İdman Baş İdarəsində noyabrın 6-8-də 1999-2001-ci il təvəllüdlü idmançılar arasında cüdo üzrə Bakı şəhər açıq birinciliyinin keçirilməsi ilə bağlı iclas keçirilib.

Iclasda yarışın keçirilmə şərtləri ilə bağlı müzakirələr aparılıb.

Birinciliyin yüksək səviyyədə keçirilməsi üçün turnirə respublika səviyyəli hakimlərin cəlb edilməsi qərara alınıb.

**AZƏRTAC-ın**
**materialları əsasında**

Gizir Qasımov Daşqın Tofiq oğluna 2011-ci ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Əbülfət QASIMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 826
Nüsxə 4710